ədəbiyyat QƏZETİ
№1 9 yanvar 2026-cı il 17

# Görkəmli ədəbiyyat adamları Sadıq Elcanlı haqqında

"Sükutun sonu" Azərbaycan nəsrində təzə söz deyən kitabdır. Dünya ədəbiyyatında çox gözəl nümunələr olan elmi-fantastik nəsrin milli ədəbiyyatımızda yükünü, ağırlığını çəkmək şərəfi Sadıq Elcanlının baxtına düşüb.

**Nəbi XƏZRİ,**
*Xalq şairi*

Sadıq Elcanlı, birinci növbədə, yazıçıdır, istedadlı yazıçıdır, böyük yazıçıdır, vətəndaş yazıçıdır.

**Tofiq HACIYEV,**
*akademik*

Sadıq Elcanlı bizim müasir ədəbiyyatımızın görkəmli simalarından birisidir, görkəmli yazıçılardan biridir... O, vətənpərvərdir, obyektivdir, sözü düz demək hünərinin sahibidir.

**ELÇİN**
*Xalq yazıçısı*

Sadıq Elcanlı ədəbiyyatımıza 70-ci illərdə gələn istedadlı yazıçılardandır...
"Qanlı Quzğun meydanı", "Yaddaş yarası" kimi irihəcmli romanlarında milli hafizənin tarixi təməllərini, gen qaynaqlarını sənət diliylə canlandırdı.

**ANAR,**
*Xalq yazıçısı*

Sadıq Elcanlı sözün qüdrəti ilə kütləni xalqa, xalqı millətə çevirmək kimi nəcib qayəyə, estetik ideala xidmət edir... S.Elcanlının, xüsusilə "Qanlı Quzğun meydanı", "Yaddaş yarası" romanları gələcəyin əsərləridir.

**Nizaməddin ŞƏMSİZADƏ,**
*Əməkdar elm xadimi, professor*

Sadıq Elcanlı ən əvvəl ədəbiyyat adamıdır. Yaradıcılığa nəsrlə gəlib - hekayələriylə, povestləriylə, romanlarıyla məşhurlaşıb Azərbaycan ədəbiyyatında. O, öz üslubunu yaradıb...

**Nizami CƏFƏROV,**
*Akademik*

Milli teleradiomuz, etiraf edək ki, onun əsərlərindən çox faydalanıb. Bütövlükdə Azərbaycan teleradiosunda milli ovqatın, sağlam vətənpərvər əhval-ruhiyyənin, saf əqidəli, səviyyəli milli mühitin yaradılmasında Sadıq Elcanlının özünəməxsus fəaliyyəti, öz zəhməti olub.

**Məhərrəm QASIMLI,**
*professor, Əməkdar elm xadimi,*
*Aşıqlar Birliyinin sədri*